Kredo 2021.- 14 aprel.- S.16.

# Ölüm sevinməsin qoy!..

**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Əlyazmaların və əski çap kitablarının tərcüməsi" şöbəsinin müdiri, biologiya elmləri namizədi, tarix elmləri doktoru, professor Fərid Urxan oğlu Ələkbərli uzun sürən ağır xəstəlikdən sonra vaxtsız vəfat etmişdir.**

Azərbaycan tibb tarixini qədim əlyazma qaynaqları əsasında araşdırmış, neçə-neçə azərbaycanlı təbib-alimin əsərlərinin həm Şərqdə, həm də Qərbdə tanınmasına nail olmuş Fərid Ələkbərlinin xidmətləri danılmazdır.

O, keçən əsrin 80-ci illərindən etibarən ilk elmi dərəcəsindən səmərəli istifadə etməklə, Orta əsr Azərbaycan tibb əlyazmaları üzərində araşdırmalar apararaq, ilk dəfə onların miqdarını müəyyən etdi və sübut etdi, ki, Orta əsrlərdə Azərbaycanda dörd maddədən ibarət sağlamlığın qorunması və sağlam həyat tərzi konsepsiyası mövcud olmuşdur. Mənbəşünas alim Fərid Ələkbərli Azərbaycanın sahib olduğu tibb sərvətini qoruyan zəngin xəzinəsinin ölkəmizdə və ondan xaricdə tanınması üçün geniş planlar hazırlayaraq, həyata keçirtdi və İnstitutda Tibb Tarixçiləri Birliyini yaratdı.

2004-cü ildə Ədliyyə Nazirliyinin qeydiyyatından keçən Birliyin I Respublika Elmi konfransı 1-2 fevral 2005-ci il tarixində keçirildi və bu konfrans Azərbaycan tibb tarixinin daha da dərindən araşdırılmasına xidmət etdi. Birliyin prezidenti, professor Fərid Ələkbərli tezliklə Beynəlxalq Konfransın təşkilini də reallaşdırdı.

Bunu Birliyin Prezidentinin xarici ölkələrdə keçirilən saysız-hesabsız elmi konfranslarda baş tutan çıxışları zəruri



etmişdi. Artıq Azərbaycan tibb əlyazmalarına ölkə və xarici alimlərin maraq dairəsi genişlənmişdi.

12-14 iyun 2006-cı ildə Bakıda "Orta əsr əlyazmalarında ənənəvi tibb və əczaçılıq mövzusunda I Beynəlxalq Konfrans uğurlu keçirildi. Tarixi hadisə olan və yaddaşlardan silinmiyəcək Konfrans Heydər Əliyev Fondu və Vaşinqton Elmlər Akademiyası tərəfindən təşkil edildi, konfransın işinə 20-dən çox xarici ölkənin nümayəndələri, həkimlər, əlyazmaçı alimlər qatılmışdılar. Qürurverici haldır ki, artıq Qərb və Şərq alimlərinin tanıdığı unudulmaz alim, Fərid Ələkbərlinin çoxillik elmi fəaliyyəti nəticəsində Azərbaycanın milli sərvəti olan qədim əlyazmalar qapalı xəzinədə qalmadı, onları dünyanın da tibb mütəxəssisləri, alimləri tanımış oldu.

Ölüm sevinməsin qoy!.. 200-dən artıq elmi və elmi-kütləvi məqalənin, Azərbaycan, rus, ingilis, alman və italyan dillərində, 23 elmi və elmi-kütləvi monoqrafiya və kitabın müəllifi olan professor Fərid Ələkbərli heç vaxt unudulmuyacaq. Axı, o, həm də Azərbaycan Milli Ensiklopediyasının xüsusi cildində əksini tapmış Azərbaycanda ən qədim zamanlardan XX əsrin əvvəllərinə qədərki dövrdə elmi biliklərin tarixi haqqında bölümün müəllifidir. Azərbaycanda tibb tarixi və qədim əlyazmalar haqqında rus və ingilis dillərində ilk kitabın müəllifidir.

O, X-XVIII əsrlərə aid türk (Azərbaycan), ərəb və farsdilli abidələr üzərində apardığı tədqiqatlar nəticəsində ilk dəfə olaraq 724 növ dərman bitkisini müəyyən etmiş və araşdırmışdır.

O, Azərbaycanda ilk orta əsr əczaçılıq terminləri lüğətini tərtib nə nəşr etdirmişdir. Professor Fərid Ələkbərli Vatikan Arxivlərində uzunmüddətli elmi araşdırmalar aparmış ilk azərbaycanlıdır!

Ölüm sevinməsin qoy!.. Dəyərli alim, gözəl insan, yüksək mədəniyyətə malik insanlığa nümunə olan Fərid Ələkbərli hər zaman xatirələrdə yaşayacaqdır.

Tahirə Həsənzadə

***t.e.d.***

***AMEA, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu***